# Dünya, hanı Zəlimxanım

Çəmən soldu, çöl ağladı-
Dünya, hanı Zəlimxanım?
Bülbül susdu, gül ağladı -
Dünya, hanı Zəlimxanım?

Haqdan gələn haqq aşığı,
Gözlərində haqq işığı,
Şerimizin yaraşığı -
Dünya, hanı Zəlimxanım?

Baldan şirin sözü vardı,
Yanar odu-közü vardı,
Başqa dadı-duzu vardı -
Dünya, hanı Zəlimxanım?

Külək əsdi, yel soruşdu,
Saç ağardı, tel soruşdu,
Soraqlayıb el soruşdu-
Dünya, hanı Zəlimxanım?

Qəribsədi  çölüm-düzüm,
Bu nisgilə necə dözüm,
Hey aradı, gəzdi gözüm-
Dünya, hanı Zəlimxanım?

Arxasıza qardaş oldu,
Ürək dostu, sirdaş oldu,
Dərdlilərə dərddaş oldu -
Dünya, hanı Zəlimxanım?

Dağlar kimi uca idi,
Dünya qədər qoca idi,
Ustad idi, Xoca idi -
Dünya, hanı Zəlimxanım?

Dərdə  düşdü canım- getdi,
Ha qovrulum, yanım - getdi,
Paşam, bəyim, xanım getdi -
Dünya, hanı Zəlimxanım?

Dədə oldu, ozan oldu,
Peyğəmbərdən yazan oldu,
Son laylası azan oldu -
Dünya, hanı Zəlimxanım?

Nalə çəkən ana dedi,
Gözüyaşlı sona dedi,
Hamı yana-yana dedi -
Dünya, hanı Zəlimxanım?

**Mayis Səlim**